**Layihə**

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

**Qərar**
**№______**

**Bakı şəhəri, _____________ 2017-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"nda dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 452; 2012, № 2, maddə 184; 2013, № 6, maddə 744; 2014, № 1, maddə 69; 2016, № 4, maddə 834; 2017, № 6, maddə 1228) ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 4.9-1-ci bənd əlavə edilsin:

"4.9-1. "Smart-kart" tipli qaz sayğacının dəyişdirilməsi (yenisi ilə əvəz edilməsi), qaz sayğacının qaz yükləmə kartının (smartkart) (bundan sonra – qaz sayğacının kartı) zədələnməsi, aşınması halları istisna olmaqla, dəyişdirilməzdən (yenisi ilə əvəz edilməzdən) əvvəl istehlakçının istifadəsində olmuş qaz sayğacının kartının dəyişdirilməsinə səbəb olmamalıdır. İstehlakçının qaz paylayıcısına və ya "ASAN Kommunal" mərkəzinə ("ASAN Kommunal" mərkəzləri yaradılmayan regionlarda – bu mərkəzlər yaradılanadək "ASAN Xidmət" mərkəzlərinə) müraciət etdiyi gün yeni quraşdırılan "Smart-kart" tipli qaz sayğacı dəyişdirilmiş əvvəlki qaz sayğacının kartı ilə identifikasiya olunmalıdır. Dəyişdirilən (istifadəyə yararsız olan) "Smart-kart" tipli qaz sayğacının hesabında qalıq vəsait (qaz həcmi) olduqda, qaz sayğacının dəyişdirilməsi barədə texniki baxış aktında bu barədə qeyd edilməlidir. İstehlakçının həmin aktı qaz paylayıcısına və ya "ASAN Kommunal" mərkəzinə ("ASAN Kommunal" mərkəzləri yaradılmayan regionlarda – bu mərkəzlər yaradılanadək "ASAN Xidmət" mərkəzlərinə) təqdim etdiyi gün aktda qeyd olunmuş qalıq vəsait (qaz həcmi) qaz sayğacının kartına köçürülməlidir.

İstehlakçının istifadəsində olan qaz sayğacının kartına yüklənmiş vəsaitin qaz paylayıcısı tərəfindən tutulması və bu Qaydaların 6.1-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla, qaz sayğacının kartına blok qoyulması qadağandır.

İstehlakçının istifadəsində olan "Smart-kart" tipli qaz sayğacının Azərbaycan dilində tərtib olunmuş texniki pasportu və istismar təlimatı qaz paylayıcısı tərəfindən istehlakçıya təqdim edilməlidir."

2. Qaydalara 2 nömrəli əlavə - "Qaz paylayıcısı ilə məişət qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqısı Müqaviləsi"nə aşağıdakı məzmunda 2.1.14-1-ci yarımbənd əlavə edilsin:

"2.1.14-1. İstehlakçının istifadəsində olan "Smart-kart" tipli qaz sayğacının Azərbaycan dilində tərtib olunmuş texniki pasportunu və istismar təlimatını istehlakçıya təqdim etmək;"

3. Qaydalara 3 nömrəli əlavə - “Qaz paylayıcısı ilə sənaye qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqısı Müqaviləsi”nə aşağıdakı məzmunda 2.1.16-1-ci yarımbənd əlavə edilsin:

“2.1.16-1. İstehlakçının istifadəsində olan “Smart-kart” tipli qaz sayğacının Azərbaycan dilində tərtib olunmuş texniki pasportunu və istismar təlimatını istehlakçıya təqdim etmək;”

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Artur Rasi-zadə**